# Mədəniyyətimiz

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 14 (1382) 20 yanvar - 23 yanvar 2017-ci il


(əvvəli ötən sayımızda)

**Mərkəzdə gənc rəssamların işləri də təqdim olunur. Odur ki, bu mərkəzin yaradılması ölkəmizdə inkişaf edən müasir incəsənətin nümunələrinin Fransa ictimaiyyətinə təqdim edilməsi baxımından olduqca əhəmiyyətli hadisədir. Bu, həm də Azərbaycanda müasir incəsənətə verilən dəyərin təzahürüdür.**

Mərkəzdə həmçinin Azərbaycan musiqisinin təbliğinə də geniş yer ayrılıb. Ayrıca muğam zalı yaradılıb, qədim musiqi alətlərimizin sərgisi təşkil olunub.

mın atılmasını iki ölkə arasında olan mədəni əlaqələrin daha da dərinləşməsi baxımından mühüm amil kimi dəyərləndirib. Bildirilib ki, Məhsəti Gəncəvinin hələ XII əsrdə əsərlərində qadınların hüquqlarını və kişi-qadın bərabərliyini müdafiə edib. Məhsəti Gəncəvinin əsərlərinin bu gün bir çox dillərə tərcümə olunduğunu və sevilə-sevilə oxunur.

### *"Azərbaycan şəhərciyi"*

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Parisdə Azərbaycan mədəniyyətinin təbliği istiqamətində atılan önəmli addımalrdan biri də "Azərbaycan şəhərciyi"nin yaradılmasıdır.

Paytaxt Parisdə, Eyfel qülləsinin yanındakı Jofr meydanında təşkil olunan "Azərbaycan şəhərciyi" vasitəsi ilə fransızların ölkəmiz haqqında daha çox məlumat əldə ediblər.

Şəhərçik fransızların ciddi marağına səbəb olmaqla yanaşı buraya baş çəkənlərdə dərin izlər buraxmışdır. Eyni zamanda belə bir sərginin həyata keçirilməsini dəyərləndirənlər bu addımın birgəyaşayışın Azərbaycan modeli Fransada da geniş yayılmasında mühüm amil olduğunu bildiriblər.

Onu da bildirək ki, təşkil olunan şəhərcikdə təşkil olunan xalq sənətkarlıq emalatxanalarında xalçaçılıq, misgərlik və şəbəkə, taxta üzərində oyma, dulusçuluq, kəlağayı və digər sənət nümunələri nümayiş olunub. Muzey bölməsində "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsi çərçivəsində ölkəmizin qədim və zəngin tarixinə, mədəniyyətinə dair eksponatlar, o cümlədən misgərlik məmulatları, milli geyimlər, musiqi alətləri, xalçalarımız və digər sənət nümunələri sərgilənib.



# Mədəniyyətimizin təbliğatçısı - Heydər Əliyev Fondu



### *Konyak şəhərində tarixi uğur*

Əsas məqsədlərindən biri Azərbaycan mədəniyyətinin dünyada geniş təbliği olan Heydər Əliyev Fondu Fransada "Nizami Gəncəvi və Məhsəti Gəncəvi: XII əsrlə XXI əsri birləşdirən ədəbi körpü" adlı layihəsi çərçivəsində Məhsəti Gəncəvinin heykəlinin şəhər mərkəzində, meriyanın bağında ucaldılması burada əsl Azərbaycan mühiti yaradıb. XII əsrin Azərbaycan intibah mədəniyyətinin zənginləşməsində xüsusi mövqeyi olan söz ustadlarından biri, poetik yaradıcılığı yerli və xarici şərqşünasların diqqət mərkəzində olan və yüksək qiymətləndirilən Məhsəti Gəncəvinin ağ mərmərdən hazırlanmış heykəl göz oxşayır. Konyak şəhərinin meri Mişel Qurənşan belə bir addı-

### *Kannda uğurlu təbliğat*

Mədəniyyətimin təbliği istiqamətində Fransanın Kann şəhərində də uğurlu addımlar atılıb. Kann şəhərində təşkil edilən sərgilərdə Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri, yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi təqdim olunub. Məhz bu amil qədim və orta əsr mənbələrinin Azərbaycan xalçaları haqqında verdiyi məlumatların bu gün də dünya mədəni irsi üçün son dərəcə dəyərli və özünəməxsus olduğunu təsdiqləyib. Milli geyimlərimiz də məişətimizin zənginliyi barədə dolğun təsəvvür yaradıb. Qədim misgərlik nümunələrimiz Azərbaycan insanının yaşam tərzi, adət-ənənələri barədə qonaqlarda müfəssəl təəssürat doğurub. Sərgidə Heydər Əliyev Fondunun ölkəmizin və onun mədəniyyətinin təbliğinə xidmət edən kitab, buklet və digər müxtəlif nəşrləri də təqdim olunub. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sərginin açılışında çıxış edərək deyib ki, ölkələrimiz arasında əlaqələr bir sıra mühüm sahələri əhatə edir: **"Amma mən bu gün daha çox humanitar sahədən danışmaq istərdim. Fransa universitetlərində Azərbaycan dili, ədəbiyyatı və tarixi tədris olunur, yüzlərlə azərbaycanlı tələbə Fransa ali məktəblərində təhsil alır. Parisdə Azərbaycanın Mədəniyyət Mərkəzi fəaliyyətə başlayıb. Bu mərkəzdə ölkəmizi tanıdan müxtəlif tədbirlər, konsertlər, sərgilər təşkil olunur. Heydər Əliyev Fondunun dəstəyi ilə Fransanın müxtəlif regionlarında və şəhərlərində Azərbaycan mədəniyyət günləri keçirilir. Artıq 16 şəhərdə belə günlər keçirilib. Biz, həmçinin Strasburq Kafedral kilsəsinin, Versal Sarayının, Fransanın müxtəlif regionlarında tarixi abidələrin bərpasında da iştirak edirik. Əziz dostlar, bu siyahını davam etdirmək mümkündür. Mən sadəcə onu demək istəyirəm ki, mədəniyyət heç bir sərhəd tanımır, mədəniyyət insanları və xalqları bir-birini daha dərindən tanıması, daha doğru anlaması üçün universal və əvəzsiz bir vasitədir. Hər bir xalqın ən böyük varlığı onun mədəni irsi, keçmişi, kökləri və ənənələridir. Biz azərbaycanlılar öz qədim və zəngin tariximiz və mədəniyyətimizlə fəxr edirik, dünyada Azərbaycanı əsrlər boyu mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu sülhsevər, qədim və bərəkətli bir torpaq kimi tanıtmaq istəyirik. Hörmətli dostlar, bizim çalışıb burada yaratdığımız Azərbaycan mühiti ümidvaram ki, sizin qəlbinizdə xoş duyğular oyadacaq ölkəmizi daha yaxından tanımaq üçün Azərbaycana gələcəksiniz".**

> "Azərbaycan xalqının çox zəngin mədəniyyəti, çox zəngin də tarixi vardır".
>
> *İlham Əliyev,*
> *Azərbaycan Respublikasının Prezidenti*

*Ədil Ədilzada*


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ